‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

9 MAY ŞƏNBƏ 2026 № 17 (4268)

Qiyməti - 60 qəpik

www.kaspi.az

# XALQI ZƏFƏRƏ APARAN LİDER

**Ulu Öndər Heydər Əliyevin həm SSRİ zamanında, həm də müstəqillik illərində həyata keçirdiyi islahatlar müasir dövrdə də öz bəhrəsini verir. Ulu Öndərin dərin təməllər üzərində qurduğu uzaqgörən siyasəti bu gün də uğurlara aparan mayak rolunu oynayır.**



**BALANSLI XARİCİ SİYASƏT KURSUNUN MEMARI** — SƏHİFƏ 5-də

**AZƏRBAYCANI QLOBAL GÜCƏ ÇEVİRƏN STRATEGİYA** — SƏHİFƏ 6-da

**BÖHRANDAN QÜDRƏTLİ SOSİAL DÖVLƏTƏ** — SƏHİFƏ 11-də

**TƏHSİLƏ VERİLƏN MÜSTƏSNA DƏYƏR** — SƏHİFƏ 12-də

**“ZAMAN KEÇDİKCƏ DƏYƏRİ DAHA DA BÖYÜYƏCƏK”** — SƏHİFƏ 13-də



ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV



# Ümummilli Lider İstanbulda ehtiramla anılıb

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə əlaqədar Ulu Öndərin İstanbulun Sarıyer rayonundakı Heydər Əliyev Parkında ucaldılan abidəsi ziyarət olunub. Ulu Öndərin əziz xatirəsi ehtiramla yad edilib, abidəsi önünə əklillər və gül dəstələri düzülüb. Tədbirdə Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, Sarıyer Bələdiyyəsinin sədri Mustafa Oktay Aksu, qardaş ölkədə təhsil alan və təlimdə olan hərbçilərimiz, Sarıyer bələdiyyəsinin, konsulluğun və Azərbaycanın dövlət qurumlarının Türkiyədəki təmsilçiliyinin əməkdaşları, diplomatlar, rəsmi şəxslər, ziyalılar, media və QHT-lərin nümayəndələri iştirak ediblər. Mərasimdə çıxış edən baş konsul Nərminə Mustafayeva və Mustafa Oktay Aksu Ulu Öndərin Türk dünyasının gələcəyinə dair baxışları haqqında danışıb, onun Azərbaycan-Türkiyə əlaqələrinin inkişafındakı rolu, müasir Azərbaycanın yenidən qurulması və bu gün dünya miqyasında tutduğu yerə gəlməsi istiqamətində göstərdiyi misilsiz xidmətlərdən, həmçinin Heydər Əliyev irsi və onun əsasını qoyduğu siyasi xətdən bəhs ediblər.



# Ulu Öndərin doğum günü Berlində qeyd edilib

Ümummilli Lider, çağdaş Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə Azərbaycanın Almaniyadakı səfirliyinin, Mədəniyyət Nazirliyinin, Azərbaycan Diasporuna Dəstək Fondunun və Almaniya Azərbaycanlıları Alyansının birgə təşəbbüsü ilə Berlində geniş konsert proqramı təşkil olunub.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev tədbirdə çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunması və möhkəmləndirilməsində, dövlətçilik ənənələrinin formalaşdırılmasında müstəsna xidmətlərindən bəhs edib. Səfir bildirib ki, 1990-cı illərin əvvəllərində mürəkkəb siyasi və iqtisadi şəraitdə Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində Azərbaycanda sabitlik bərpa olundu, dövlət institutları gücləndirildi və ölkəmizin gələcək inkişafının əsasları qoyuldu. Diplomat qeyd edib ki, Ulu Öndərin həyata keçirdiyi müdrik xarici siyasət nəticəsində Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı tərəfdaşına çevrildi, xüsusilə enerji siyasəti ölkəmizin strateji əhəmiyyətini daha da artırdı.

# “YENİ DÖVRÜN AZƏRBAYCANI”



**Elmi konfransda Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsinin öyrənilməsinin Azərbaycan dövlətinin quruluşu və müasir inkişaf dinamikası baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb.**

Mayın 8-də Bakı Slavyan Universitetində (BSU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilmiş “Yeni dövrün Azərbaycanı” adlı XVII beynəlxalq elmi konfrans keçirilib. Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyev və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

### HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK İRSİ

BSU-nun rektoru Anar Nağıyev çıxışında Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsinin öyrənilməsinin Azərbaycan dövlətinin quruluşu və müasir inkişaf dinamikası baxımından mühüm əhəmiyyət daşıdığını söyləyib. O bildirib ki, konfrans Ümummilli Liderin azərbaycançılıq məfkurəsinin araşdırılmasına həsr olunub və bu istiqamətdə elmi-tədqiqatların genişləndirilməsini hədəfləyir.

Rektorun sözlərinə görə, builki konfransın əsas istiqaməti “Bütöv Azərbaycan” konsepsiyası və bu çərçivədə alim və tədqiqatçıların fənlərarası yanaşmalar əsasında güclü Azərbaycan modelini araşdırmasıdır.

### AZƏRBAYCANIN İNKİŞAF İSTİQAMƏTLƏRİNİN ƏSASI

Tədbirdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanı həm tarixi inkişaf, həm beynəlxalq münasibətlər sistemi, həm də xalqlararası əlaqələr baxımından dünyanın önəmli ölkələrindən birinə çevrildiyini söyləyib. O bildirib ki, Heydər Əliyevin şəxsiyyəti ilə Azərbaycanın dövlətçilik prinsipləri arasında xüsusi bir vəhdət mövcuddur.

Deputatın sözlərinə görə, Azərbaycanın bugünkü xarici siyasət kursu bütün dövlətlərlə normal və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin qurulmasına yönəlib. Səməd Seyidov qeyd edib ki, müasir Azərbaycanın dövlətçilik fəlsəfəsi, siyasi kursu və inkişaf istiqamətləri birbaşa Heydər Əliyevin irsindən qaynaqlanır.



Səməd Seyidov

### ÜMUMMİLLİ LİDERİN STRATEGİYASININ DAVAMI

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bu gün Qarabağın yenidən qurulması prosesinin Heydər Əliyevin dövlətçilik məktəbinin prinsipləri əsasında həyata keçirilməli olduğunu söyləyib. O bildirib ki, bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik strategiyasının davamıdır.

Milli Məclisin deputatı Rizvan Nəbiyev bildirib ki, müasir Azərbaycanın beynəlxalq nüfuzu və strateji gücü Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik kursunun nəticəsidir. O qeyd edib ki, Heydər Əliyev Azərbaycanın xarici siyasət prioritetlərini milli maraqlar üzərində quraraq ölkənin gələcək inkişaf modelinin əsasını formalaşdırıb. Rizvan Nəbiyevin sözlərinə görə, “Yeni dövrün Azərbaycanı” konsepsiyası məhz Ulu Öndərin ideyalarının müasir dövrdə praktik təcəssümüdür.

### MÜNASİBƏTLƏRİN DAHA YÜKSƏK İNKİŞAF MƏRHƏLƏSİ

Özbəkistanın Səmərqənd Dövlət Xarici Dillər İnstitutunun rektoru Bahodir Xolikov isə Azərbaycan və Özbəkistan arasında sosial, iqtisadi, mədəni və humanitar əlaqələrin təməlinin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Özbəkistan Prezidenti İslam Kərimovun səyləri nəticəsində qoyulduğunu vurğulayıb. O bildirib ki, bu gün müasir Azərbaycan dövlətinin memarı Prezident İlham Əliyev və Yeni Özbəkistanın qurucusu kimi tanınan Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə həmin münasibətlər yeni və daha yüksək inkişaf mərhələsinə qədəm qoyub.



Bahodir Xolikov



ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV



# SARSILMAZ STRATEJİ TƏRƏFDAŞLIQ

Bakı-Roma əlaqələrinin hüdudları Cənubi Qafqazdan Aralıq dənizi hövzəsinə qədər geniş bir coğrafiyanı əhatələyir. Həyata keçirilən birgə layihələr bu coğrafiyada başda enerji olmaqla, geniş təhlükəsizlik arxitekturasını formalaşdırır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

On üç illik fasilədən sonra İtaliyanın Baş nazirinin Azərbaycana növbəti səfəri reallaşdı. Hazırkı Baş nazir Ciorcia Meloninin Bakı səfəri müddət baxımından qısa olsa da, ölkələrarası münasibətlərin inkişafı və əlaqələrin daha da dərinləşdirilməsi baxımından çox mühüm əhəmiyyətə malik idi.

### QARŞILIQLI ETİMAD ƏN YÜKSƏK SƏVİYYƏDƏDİR

Qeyd edək ki, Azərbaycanın Avropa İttifaqına (Aİ) üzv ölkələrlə qarşılıqlı ikitərəfli münasibətlərində İtaliya ilə əlaqələr prioritet təşkil edir. Bu baxımdan Bakı və Roma arasındakı münasibətlər özünün strateji əhəmiyyəti və çoxşaxəliliyinə görə ciddi şəkildə fərqlənir. Siyasi münasibətlər baxımından ölkələr arasında qarşılıqlı etimad ən yüksək səviyyədədir. Bu etimad mühiti Prezident İlham Əliyevin Baş nazir Ciorcia Meloni ilə bu zamana qədər reallaşan görüşlərində və həftənin əvvəlində baş tutan səfər zamanı aparılan müzakirələrin mahiyyətində də aydın şəkildə görünür.

### DÜNYAYA VERİLƏN SİMVOLİK MESAJ

Ciorcia Meloninin Azərbaycana səfərinin Ermənistandakı müzakirələrdə iştirakından sonraya təsadüf etməsi xüsusi vurğulanmalıdır. Bununla bütün dünyaya rəmzi olaraq Romanın Cənubi Qafqazda prioritetləri və tərəfdaşlıq ünvanı ilə bağlı simvolik mesaj da ötürülmüş oldu. Bu səfər Azərbaycan-İtaliya dostluğunun fundamental xarakter daşıdığını təsdiqləyir. Bakıdakı müzakirələrin ardından verilən bəyanatlar İtaliyanın Azərbaycanın ərazi bütövlüyünü, regional liderliyini və sülh gündəliyini açıq şəkildə dəstəklədiyini bütün dünyaya göstərmiş oldu. Ali rəhbərliklər arasında formalaşan konstruktiv dialoq iki ölkənin həm regional, həm də qlobal maraqlarının bir çox məsələlərdə üst-üstə düşdüyünü açıq şəkildə göstərir. Bu mənzərə tərəflərin mətbuata birgə bəyanatlarında səsləndirilən fikirlərlə də ortaya qoyuldu. Bir daha təsdiqlədi ki, Bakı və Roma qlobal çağırışlara koordinasiyalı mövqedən çıxış etmək iradəsindədir.

## Roma ədalətli və prinsipial mövqeyi ilə seçilir

Qeyd edək ki, Azərbaycan üçün İtaliyanı digər Avropa dövlətlərindən fərqləndirən bir sıra mühüm məqamlar mövcuddur. Öncə ondan başlayaq ki, İtaliya Aİ-nin əsas iqtisadi güclərindən biri və G7-nin üzvüdür. Roma daim beynəlxalq müstəvidə özünün prinsipial və ədalətli mövqeyi ilə seçilib. Biz bu münasibəti istər münaqişənin mövcud olduğu, istərsə də postmünaqişə dövründə müşahidə etmişik. İtaliya həm də Avropanın böyük dövlətləri və G7 üzvləri arasında Azərbaycan ilə strateji tərəfdaşlıq sənədi imzalayan ilk dövlətdir. 2020-ci ildə imzalanan "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə" ikitərəfli münasibətlərin iqtisadi, siyasi, təhlükəsizlik və humanitar istiqamətlərini əhatə edən genişmiqyaslı fəaliyyət proqramı kimi xarakterizə edilir.

### İTALİYA ÜÇÜN ETİBARLI TƏRƏFDAŞ

Məhz bu sağlam təməl üzərində inkişaf edən Bakı-Roma əlaqələrinin hüdudları Cənubi Qafqazdan Aralıq dənizi hövzəsinə qədər geniş bir coğrafiyanı əhatələyir. Həyata keçirilən birgə layihələr bu coğrafiyada başda enerji olmaqla, geniş təhlükəsizlik arxitekturasını formalaşdırır.



Azərbaycan bu gün İtaliyanın enerji təhlükəsizliyinin təminində müstəsna rola malikdir. Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə İtaliyaya ixrac edilən Azərbaycan qazı mövcud gərgin vəziyyətdə ölkə iqtisadiyyatının və əhalinin mavi yanacaqla təminində mühüm rol oynayır. 2025-ci ildə Azərbaycanın İtaliyaya təxminən 10 milyard kubmetr qaz ixrac etməsi bu mövqeyi daha da möhkəmləndirib. Ümumilikdə Cənub Qaz Dəhlizi vasitəsilə İtaliyaya çatdırılan qazın həcminin 50 milyard kubmetrə yaxınlaşması bu marşrutun İtaliya üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha sübut edir. Azərbaycan İtaliyanın neft təminatında da ikinci yerdə qərarlaşıb.

## ƏMƏKDAŞLIQ ÖZÜNÜN ÇOXİSTİQAMƏTLİLİYİ İLƏ SEÇİLİR

İkitərəfli münasibətlər tək siyasi və enerji sektoru ilə yekunlaşmır. Tərəflərin mətbuata birgə bəyanatında vurğulandığı kimi, bu əməkdaşlıq özünün çoxistiqamətliliyi ilə seçilir. İtaliya şirkətləri işğaldan azad edilmiş ərazilərdə - Qarabağ və Şərqi Zəngəzurda, eləcə də Mingəçevirdə aparılan strateji layihələrdə üstünlük təşkil edir. Zəfər muzeylərinin memarlıq layihələrinin hazırlanmasında italyan dizayn məktəbi yaxından iştirak edir. Bu gün Azərbaycan da İtaliya iqtisadiyyatına 3 milyard dollar sərmaye yatırıb. Bu yatırım həm də Azərbaycanın Avropa iqtisadiyyatına etibarlı çıxışını təmin edən mühüm addım kimi qiymətləndirilir. Roma Azərbaycanın Aİ ilə əlaqələrinin genişləndirilməsində də maraqlıdır. Brüssellə Bakı arasındakı dialoqu da açıq şəkildə dəstəkləyir.

### HƏRBİ TEXNİKİ ƏMƏKDAŞLIQ

Əməkdaşlıq strukturunda hərbi-texniki və müdafiə sənayesi sahəsində əlaqələrin dərinləşdirilməsi də prioritet elan edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) arsenalının müasirləşdirilməsi məqsədilə İtaliyanın qabaqcıl texnologiyalarına əsaslanan müasir yük təyyarələrinin alınması təkcə ordumuzun logistik və operativ imkanlarını genişləndirmir. Həm də Azərbaycan İtaliyanın timsalında müasir hərb sənayesinə malik NATO üzvü olan güclü müttəfiq qazanır. Hərbi əlaqələrin siyasi və iqtisadi münasibətlərlə dəstəklənməsi isə onun strateji çəkisini daha da artırır, əməkdaşlıq coğrafiyasının genişləmdirilməsinə ciddi zəmin yaradır.

Beləliklə, Azərbaycan İtaliyanın timsalında onun maraqlarını Avropada açıq şəkildə müdafiə edən strateji müttəfiqə, İtaliya isə Azərbaycanın timsalında etibarlı tərəfdaşa malikdir.



ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV

# ULU ÖNDƏRİN ŞAH ƏSƏRİ

1995-ci il 12 noyabr təqvimi müstəqil Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin əsasını qoyub. İlk Konstitusiyanın qəbulu Ulu Öndərin görmək istədiyi güclü, müstəqil, ərazi bütövlüyü və suverenliyi tam bərpa olunan müstəqil Azərbaycan yolçuluğunun əsasını qoydu.




F.ABASOĞLU

Ümummilli Lider Heydər Əliyevin dövlət və xalq qarşısındakı ən mühüm xidmətlərindən biri müstəqil Azərbaycanın ilk Konstitusiyanın qəbuluna nail olması idi. Ana qanun hər bir ölkənin inkişaf strategiyasının, dövlət quruculuğunun, vətəndaş-dövlət münasibətlərinin əsasını təşkil edir. 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi ilə müstəqilliyini yeni əldə edən, torpaqları işğala, xalqı soyqırımına məruz qalan Azərbaycanın qısa müddət ərzində demokratik dəyərləri, müasir dövlət quruculuğunun əsas prinsiplərini özündə birləşdirən mütərəqqi Konstitusiyaya sahib olması Ulu Öndər Əliyevin yorulmaz fəaliyyəti, uzaqgörən siyasəti və gərgin əməyinin nəticəsi idi.

### MÜSTƏQİL AZƏRBAYCAN YOLUNDA

1995-ci il 12 noyabr təqvimi tariximizə qızıl hərflərlə yazılmaqla yanaşı, həm də müstəqil Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin, inkişaf və quruculuq prosesinin əsasını qoyub. İlk Konstitusiyanın qəbulu Ulu Öndərin görmək istədiyi, yaratmağa çalışdığı güclü, müstəqil, ərazi bütövlüyü və suverenliyi tam bərpa olunan, demokratik, hüquqi dövlət prinsiplərinə sadiq müstəqil Azərbaycan yolunda sağlam təməlin əsasını qoydu.

Ulu Öndər deyirdi: "Azərbaycanın tarixi keçmişi, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir. Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi naliyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik".

## KONSTİTUSİYANIN QƏBULUNA GEDƏN YOL

Mövcud şərtlər daxilində ölkənin əsas qanunun qəbulu böyük zəhmət və gərgin fəaliyyət tələb edirdi. Milli Məclisin 1995-ci il 2 may tarixli qərarı əsasında Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olundu. Komissiyanın tərkibində qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, ölkənin tanınmış ictimai-siyasi və elm xadimləri, hüquqşünaslar, tarixçilər, dilçilər də təmsil olunurdu. Hər bir maddə, hər bir bənd Ulu Öndərin müəyyən etdiyi prinsiplər və verdiyi dəyərli tövsiyələr əsasında hazırlanırdı. Ümummilli Lider komissiyanın ilk iclasındakı çıxışında Konstitusiyanın mahiyyətni belə izah edirdi: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

1995-ci il oktyabrın 3-də keçirilən iclasda isə Ümummilli Lider Heydər Əliyev Konstitusiyanın qəbulunun əsas məramını belə izah edirdi: "Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir".

## 12 FƏSİL, 158 MADDƏ

Xatırladaq ki, 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət Konstitusiya 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində qəbul edildi və rəsmən 1995-ci il noyabrın 27-də isə qüvvəyə mindi. Müstəqillik tariximiz, dövlətçiliyimiz üçün müstəsna əhəmiyyətə malik olan bu tarix Ulu Öndər Heydər Əliyev tərəfindən 1996-cı il 1 noyabrda imzalanan Fərmana əsasən Konstitusiya Günü kimi qeyd edilməyə başlanıb. 1996-cı ildə Konstitusiya Günü münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikində Heydər Əliyev deyirdi: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyin qorunub saxlanılması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

### "KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ"

Ulu Öndərin müstəqil Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən ideyalarının, baxışlarının əks olunduğu Konstitusiyamızın qəbul edilməsinin 30-cü ildönümü ərəfəsində Prezident İlham Əliyev tərəfindən daha bir tarixi sərəncam imzalandı. 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edildi. Dövlət başçısının imzası ilə təsdiqlənən Sərəncamda da bildirildi ki, 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alınıb, ictimai-siyasi sabitlik təmin edilib və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yaranıb. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil edib. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynayıb.

Bəli, artıq Ulu Öndərin şah əsərlərindən biri sayılan Konstitusiyamızın müddəaları ölkəmizin bütün suveren ərazilərində təmin edilir.



ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV

# BALANSLI XARİCİ SİYASƏT KURSUNUN MEMARI




Ulu Öndərin hakimiyyətdə olduğu 1993-2003-cü illər digər sahələrdə olduğu kimi, xarici siyasətdə də mühüm uğurlar və nəticələrlə yadda qalıb. Müasir Azərbaycanın beynəlxalq müstəvidə qurulan sağlam münasibətlərinin təməlləri məhz Ulu Öndərin uzaqgörən xarici siyasəti əsasında atılıb.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Keçən əsrin 90-cı illərində Azərbaycan müstəqilliyini əldə edən zaman dünyada proqnozlaşdırılması çətin və ziddiyyətli proseslər baş verirdi. Belə bir zamanda ölkənin dayanıqlı inkişafı, yenicə müstəqilliyinə qovuşmuş dövlətlərin ayaqda qalması üçün düşünülmüş və uzaqgörən xarici siyasət kursunun formalaşdırılması başlıca şərtlərdən biri idi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışı isə Azərbaycan üçün çox mürəkkəb bir dövrə təsadüf edirdi. Bir tərəfdən Ermənistanın işğal siyasətinin davam etməsi, digər tərəfdən isə ayrı-ayrı xarici dövlətlərin ölkəmizlə bağlı məkrli planları Azərbaycanı çox çətin bir vəziyyətə salmışdı.

### ÇOX ÇƏTİN VƏZİFƏ

Ümummilli Liderin qarşısında dayanan ən çətin vəzifələrdən biri belə bir şəraitdə daxili ictimai-siyasi sabitliyi qorumaqla bərabər, çevik, düşünülmüş xarici siyasət kursunun reallaşdırılmasını təmin etmək idi. Ulu Öndər dünyadakı erməni lobbisinin fəaliyyəti nəticəsində Azərbaycanın üzləşdiyi beynəlxalq təcrid baryerini dağıtmalı, xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdırmalı, informasiya blokadasını yarmalı idi. 1994-cü ilin mayında əldə edilən atəşkəs qarşıya qoyulan ilkin məqsədlərin reallaşdırılması istiqamətində geniş fürsətlər pəncərəsi yaratdı.

### BEYNƏLXALQ TƏŞKİLATLARLA SIX ƏMƏKDAŞLIQ

Heydər Əliyevin dünya siyasətindəki nüfuzu, zəngin dövlətçilik təcrübəsi Azərbaycanın beynəlxalq aləmdə üzləşdiyi maneələrin bir-bir dəf edilməsində müstəsna rol oynadı. Ulu Öndərin təşəbbüsü ilə "Əsrin müqaviləsi"nin imzalanması həm də Azərbaycanın qlobal dünyaya tamhüquqlu üzv kimi çıxışının əsasını qoydu. Bu müqavilə ölkəmizin beynəlxalq dayaqlarını gücləndirməklə yanaşı, Azərbaycan reallığının dünya tərəfindən tanınmasına da vəsilə oldu. Ümummilli Liderin xarici siyasət prioritetləri arasında beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq önəmli yer tuturdu. 1994-cü il mayın 4-də Heydər Əliyev "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzaladı. Bu sənəd yenicə formalaşmağa başlayan Azərbaycan Ordusuna NATO-nun hərbi strukturları ilə sülh naminə əməkdaşlıq etmək, birgə təlim və manevrlər keçirmək, kadr hazırlığı və digər mühüm məqamlar üzrə zəngin təcrübə qazanmaqda geniş imkanlar yaratdı. 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı ilə Azərbaycan arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalandı. 1996-cı il iyunun 26-28-də Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyası zamanı Assambleyanın Bürosu Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusunun verilməsi barədə qərar qəbul etdi. 2001-ci il yanvarın 17-də isə Azərbaycan Avropa Şurasının tam hüquqlu üzvü oldu.



## Qonşu ölkələrlə münasibətlər

Xatırladaq ki, müstəqilliyimizin ilk illərində Azərbaycanın qonşu ölkələrlə münasibətlərində də ciddi gərginlik və soyuqluq yaranmışdı. Ulu Öndərin xarici siyasət kursunun əsasını həm də qonşu dövlətlərlə münasibətlərin bərpası təşkil edirdi. Heydər Əliyevin ardıcıl və uzaqgörən gedişləri qısa müddət kəsiyində rəsmi Bakının qonşuları ilə münasibətlərini nizamlamasına şərait yaratdı. Rusiya və İranla bərabərhüquqlu, qarşılıqlı hörmətə əsaslanan mehriban qonşuluq münasibətləri formalaşdırıldı. Türkiyə ilə əlaqələr isə "bir millət, iki dövlət" prinsipinə uyğun şəkildə inkişaf etdirildi.

## Dünyaya çatdırılan Azərbaycan həqiqətləri

Təbii ki, Ulu Öndərin xarici siyasətində bir nömrəli prioritet hər zaman Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması təşkil edib.

Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək bu beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı. 1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında qəbul edilən qərar və ölkəmizin ərazi bütöv-lüyünə birmənalı dəstəyin ifadə olunması da Azərbaycan diplomatiyasının qələbəsi idi.

### ÇOXŞAXƏLİ ƏMƏKDAŞLIQ MODELİ

Ulu Öndərin balanslaşdırılmış, çoxşaxəli və dünyanın bütün güc mərkəzləri ilə milli maraqlarımızın müdafiəsinə hesablanan əməkdaşlıq siyasəti hər keçən gün Azərbaycanın beynəlxalq miqyasdakı rolunu gücləndirirdi. 2001-ci ilin 11 sentyabr terror hadisələrindən dərhal sonra Ulu Öndərin beynəlxalq terrorizmi pisləyən bəyanatla çıxış etməsi, Azərbaycanın antiterror koalisiyasında fəal iştirakı ABŞ ilə münasibətlərdə yeni səhifə açdı. Avropada Böyük Britaniya, Almaniya, İtaliya, Fransa kimi dövlətlərlə qurulan münasibətlər, İslam dünyası ilə əməkdaşlığın dərinləşdirilməsi, Çinlə ikitərəfli dialoq Azərbaycanın inkişafı, iqtisadi qüdrətinin artması baxımından mühüm əhəmiyyətə malik idi.

Ulu Öndərin hakimiyyətdə olduğu 1993-2003-cü illər digər sahələrdə olduğu kimi, xarici siyasətdə də mühüm uğurlar və nəticələrlə yadda qalıb. Müasir Azərbaycanın beynəlxalq müstəvidə qurulan sağlam münasibətlərinin təməlləri məhz Ulu Öndərin uzaqgörən xarici siyasəti əsasında atılıb.



ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV

# AZƏRBAYCANI QLOBAL GÜCƏ ÇEVİRƏN STRATEGİYA



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanın müasir iqtisadi qüdrəti və qlobal enerji bazarında etibarlı tərəfdaş imici ardıcıl həyata keçirilən neft siyasətinin nəticəsidir. Bu inkişaf yolunun əsas memarı olan Ümummilli Lider Heydər Əliyevin neft strategiyasının təməli təkcə müstəqillik illərində deyil, hələ 1969-cu ildən - Azərbaycana rəhbərlik etdiyi ilk dövrlərdən qoyulub. Sovet hakimiyyəti illərində neft sənayesinin modernləşdirilməsi, Xəzər dənizində yeni zəngin yataqların kəşfi və nəhəng infrastruktur layihələrinin icrası ilə yaradılan möhkəm baza, 1990-cı illərin əvvəllərindəki ağır siyasi-iqtisadi böhran zamanı gənc respublikanın xilas nöqtəsinə çevrildi. Məhz bu tarixi zəmin üzərində, Heydər Əliyevin siyasi iradəsi ilə işlənib hazırlanan yeni neft strategiyası və 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanı iqtisadi tənəzzüldən çıxararaq davamlı inkişaf yoluna çıxardı.

### ONUN UZAQGÖRƏN SİYASƏTİ SAYƏSİNDƏ...

Milli Məclisin deputatı Aydın Hüseynovun sözlərinə görə, Azərbaycanın müasir neft strategiyasının hazırlanmasında Ümummilli Lider Heydər Əliyevin tarixi rolu danılmazdır: "Məhz onun uzaqgörən siyasəti sayəsində ölkəmiz təbii sərvətlərini sırf milli maraqlar çərçivəsində idarə etməyə müvəffəq oldu və qlobal enerji bazarında özünü etibarlı tərəfdaş kimi təsdiqlədi. 1990-cı illərin mürəkkəb siyasi-iqtisadi burulğanında qəbul edilən həlledici qərarlar bu gün respublikamızın iqtisadi müstəqilliyinin sarsılmaz təməlini təşkil edir. Heydər Əliyevin müəllifi olduğu neft strategiyası sadəcə enerji sektorunun inkişafına deyil, bütövlükdə dövlətçiliyimizin qüdrətlənməsinə və milli təhlükəsizliyimizin təmininə xidmət etdi".

Bu strateji xəttin ən mühüm dönüş nöqtəsi 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması oldu. Tarixi saziş Azərbaycanı beynəlxalq enerji xəritəsinə çıxarmaqla yanaşı, ölkəyə irihəcmli xarici investisiya axınını və innovativ texnologiyaların tətbiqini şərtləndirdi: "Nəticə etibarilə, minlərlə yeni iş yeri yaradıldı, ölkə infrastrukturu əsaslı şəkildə yeniləndi və dövlət büdcəsinin gəlirləri artdı. Prosesin məntiqi davamı olaraq Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri kimi meqalayihənin reallaşdırılması Azərbaycanın enerji strategiyasının mütləq zəfəri kimi qiymətləndirilir. BTC ölkə neftinin dünya bazarlarına təhlükəsiz, alternativ və fasiləsiz marşrutla nəqlini təmin edərək respublikamızın geosiyasi çəkisini artırdı və regional əməkdaşlığın yeni formatını yaratdı".




Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu neft strategiyası müstəqil Azərbaycanın uğur hekayəsində xüsusi yerə malikdir. Enerji resurslarımızın qlobal bazarlara çıxışı bu strategiyanın mütləq zəfəri kimi qiymətləndirilir.

## "İlham Əliyevin rəhbərliyi altında strategiya daha da şaxələndirilib"

Deputatın fikrincə, müasir dövrdə həyata keçirilən enerji siyasəti də məhz bu təməl strateji kursa istinad edir: "Prezident İlham Əliyevin rəhbərliyi altında bu strategiya daha da şaxələndirilib və yeni qlobal layihələrlə zənginləşdirilib. Xüsusilə Cənub Qaz Dəhlizi kimi geostrateji layihənin reallaşdırılması Azərbaycanı Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevirib. Paralel olaraq, hazırda yaşıl enerji – bərpa olunan enerji mənbələri istiqamətində atılan qətiyyətli addımlar ölkəmizin enerji siyasətini tamamilə yeni və mütərəqqi bir mərhələyə yüksəldir. Ümummilli Liderin təməlini qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasət təkcə Azərbaycanın davamlı iqtisadi inkişafını təmin etmir, həm də dövlətimizin beynəlxalq nüfuzunu gücləndirərək gələcək nəsillər üçün rifah və təhlükəsizlik qarantına çevrilir".



Aydın Hüseynov



Vüqar Bayramov

**Foto:** Firudin Səlimov - Global Photostock

## "Dinamik inkişaf mərhələsinə keçidə zəmin yaratdı"

Millət vəkili Vüqar Bayramov bildirdi ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın bütün istiqamətlərdə, o cümlədən iqtisadi sahədə əldə etdiyi tarixi uğurlarının banisidir: "Onun hakimiyyətə yenidən qayıdışı iqtisadiyyatın bütün sektorlarını əhatə edən dərin tənəzzülün aradan qaldırılmasına, qısa müddətdə makroiqtisadi sabitliyin təmin olunmasına və dinamik inkişaf mərhələsinə keçidə zəmin yaratdı. Həyata keçirilən təxirəsalınmaz islahatlar və məqsədyönlü tədbirlər sayəsində iqtisadi böhranın qarşısı alındı, ölkənin gələcək inkişafının təməli qoyuldu. Bu inkişaf yolunda "Əsrin müqaviləsi" və ümumilikdə yeni neft strategiyası müstəsna əhəmiyyət kəsb edir. 1994-cü ildə ölkədəki vəziyyət kifayət qədər mürəkkəb idi. 1992-1993-cü illərdəki səriştəsiz idarəetmə nəticəsində iqtisadiyyat demək olar ki, iflic vəziyyətinə düşmüşdü. Lakin qətiyyətli idarəetmə nəticəsində 1995-ci ildən etibarən iqtisadiyyatda sabitlik bərqərar oldu. Xarici təzyiqlərin və daxili sabitliyi pozmağa yönəlmiş qruplaşmaların mövcud olduğu son dərəcə ağır bir şəraitdə imzalanan "Əsrin müqaviləsi"ndə Azərbaycanın dövlət maraqları tam təmin edildi".

### DAVAMLI VƏ İNKLÜZİV İNKİŞAFIN BÜNÖVRƏSİ QOYULDU

V.Bayramovun sözlərinə görə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin müstəsna rolu xüsusi vurğulanmalıdır. Açıq dənizlərə birbaşa çıxışı olmayan Azərbaycan üçün enerji resurslarının dünya bazarlarına nəqli ən həlledici məsələlərdən biri idi: "Heydər Əliyevin siyasi iradəsi sayəsində reallığa çevrilən BTC bu gün təkcə ölkəmizin iqtisadi maraqlarını təmin etmir, həm də Avropanın enerji təhlükəsizliyi arxitekturasında xüsusi çəkiyə malikdir və hələ uzun illər regionun enerji xəritəsindəki strateji mövqeyini qoruyacaq. Məhz bu səbəbdən müasir dövrdə həyata keçirilən dövlət siyasəti Ümummilli Liderin müəyyənləşdirdiyi strateji kursun məntiqi davamı kimi qiymətləndirilməlidir. Uzaqgörən neft strategiyası iqtisadi və dayanıqlı inkişafın hərəkətverici qüvvəsinə çevrilib. Sonrakı illərdə neft satışından əldə edilən gəlirlərin məqsədyönlü idarə olunması qeyri-neft sektorunun tərəqqisinə və ölkə miqyasında müasir infrastrukturun qurulmasına geniş imkanlar açdı. Bu gün Azərbaycan iqtisadiyyatında nümayiş etdirilən dayanıqlılıq məhz bu strategiyanın uğurla reallaşmasının nəticəsidir".



ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV

# İNSAN SAĞLAMLIĞI DÖVLƏT PRİORİTETİ KİMİ



Heydər Əliyevin səhiyyə siyasəti Azərbaycanda insan amilinə əsaslanan, vətəndaş yönümlü və müasir səhiyyə sisteminin formalaşması üçün möhkəm təməl yaradıb. Bu irs bu gün də uğurla davam etdirilir və Azərbaycan səhiyyəsinin inkişafında əsas strateji istiqamətlərdən biri olaraq qalır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

## QOYDUĞU TƏMƏLLƏRİN BƏHRƏSİ BU GÜN DƏ HİSS OLUNUR

Ümummilli Lider Heydər Əliyev digər sahələrdə olduğu kimi, Azərbaycan səhiyyəsinin inkişafında da mühüm rol oynayıb. Ulu Öndər insanların sağlamlığını dövlət üçün əsas prioritetlərdən biri hesab edirdi. Onun rəhbərliyi dövründə ölkədə yeni xəstəxanalar tikilir, səhiyyə müəssisələrinin fəaliyyəti gücləndirilir, peşəkar həkim kadrlarının hazırlanmasına xüsusi diqqət ayrılırdı.

### "DÖVLƏT SƏVİYYƏSİNDƏ BÜTÜN MÜMKÜN TƏDBİRLƏRİ REALLAŞDIRIB"

Bu siyasətin mahiyyətini Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov belə izah edir: "Ulu Öndər XX əsrin 70-80-ci illərində elm, təhsil və səhiyyə sistemlərinin yüksəlişini təmin edərək, bu sahələrin hərtərəfli inkişafı üçün dövlət səviyyəsində bütün mümkün tədbirləri reallaşdırıb. O, həmin dövrdə ilk növbədə, tibb üzrə xarici mütəxəssislərin diqqətini Azərbaycana cəlb etməyə, onlarla yerli mütəxəssislər arasında əlaqə yaratmağa çalışıb. Bununla da səhiyyə, o cümlədən tibb elmi və təhsili, səhiyyə sahələrində mövcud durğunluğun aradan qaldırılmasına nail olub. O, Azərbaycan səhiyyəsində ölçüyəgəlməz islahatlar aparır və nəticədə o zamankı Azərbaycan Dövlət Tibb İnstitutu keçmiş Sovetlər İttifaqında sayılıb-seçilən elm və təhsil məbədlərindən birinə çevrilir. İnstitutda internatura kursu, hazırlıq şöbəsi, istehsalat təcrübəsi dekanlığı, daha sonralar tibbi-biologiya fakültəsi və dekanlığı, hərbi-tibb fakültəsi və dekanlığı və digər köməkçi şöbələr yaradılıb".



Ə.Əmiraslanov deyir ki, Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəldiyi dövrün tələbələrindən biri olduğu üçün Ulu Öndərin gənclərə göstərdiyi qayğıdan ona da pay düşüb: "Bu qayğının sayəsində mən 1974-cü ildə Moskvada SSRİ Tibb Elmləri Akademiyasının Onkoloji Elmi Mərkəzinin aspirantı oldum. O vaxtlar Moskvanın müxtəlif ali tibb təhsili müəssisələrində mənim kimi gənclər çox idi". Komitə sədri vurğulayır ki, Heydər Əliyevin xarici ölkələrdə oxutdurduğu gənclər indi Azərbaycanda aparıcı mütəxəssislərə çevriliblər: "Onun qoyduğu təməllərin bəhrəsi Azərbaycan Tibb Universitetinin timsalında da özünü daha dolğun şəkildə göstərir. Tarixi dəlillər sübut edir ki, bu ali tibb təhsili ocağı yarandığı gündən həmişə milli kadr qıtlığından əziyyət çəkib. Lakin indi tam əminliklə deyirəm ki, həm mənim həyatımda, həm ölkəmizin tibb kadrlarının, həm də bütövlükdə Azərbaycan Tibb Universiteti kollektivinin həyatında əsaslı rol oynayan Ulu Öndərin sayəsində bütün sahələri üzrə çox sanballı, yüksək səviyyəli milli kadrlar yetişib".

### SOSİAL SİYASƏTİN ƏSAS İSTİQAMƏTLƏRİNDƏN BİRİ

Millət vəkili Müşfiq Məmmədli deyir ki, Ümummilli Lider müasir Azərbaycanın səhiyyə sisteminin formalaşması və inkişafında mühüm rol oynamış dövlət xadimidir. Onun rəhbərliyi dövründə səhiyyə sahəsi sosial siyasətin əsas istiqamətlərindən biri kimi müəyyən edilib. Həm infrastrukturun yenilənməsi, həm də əhalinin tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi istiqamətində ardıcıl addımlar atılıb: "Xüsusilə vurğulamaq lazımdır ki, 1970-1980-ci illərdə Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda yüzlərlə yeni səhiyyə müəssisəsi istifadəyə verilib. Həmin dövrdə Bakı ilə yanaşı regionlarda da xəstəxanalar, poliklinikalar, feldşer-mama məntəqələri tikilib, kənd yerlərində tibbi xidmətin əlçatanlığı əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb. Bu siyasət nəticəsində minlərlə vətəndaş ilk dəfə yaşadığı ərazidə keyfiyyətli tibbi xidmət almaq imkanı əldə edib. Heydər Əliyev səhiyyənin inkişafını yalnız bina tikintisi ilə məhdudlaşdırmırdı. O, tibbi təhsil və peşəkar kadr hazırlığını da prioritet istiqamət hesab edirdi. Məhz onun təşəbbüsü ilə azərbaycanlı gənclərin keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərində tibb təhsili almasına geniş imkan yaradılıb".

Millət vəkili bildirir ki, Ulu Öndərin diqqət yetirdiyi əsas məsələlərdən biri də ana və uşaq sağlamlığının qorunması idi: "Həmin dövrdə doğum evlərinin, uşaq xəstəxanalarının və sanatoriya müəssisələrinin sayı artırılıb, profilaktik tibbi müayinələrin əhatə dairəsi genişləndirilib. Əhalinin peyvəndlənməsi və yoluxucu xəstəliklərlə mübarizə istiqamətində həyata keçirilən tədbirlər də səhiyyə göstəricilərinin yaxşılaşmasına ciddi təsir göstərib. Müstəqillik dövründə də Heydər Əliyev səhiyyə sisteminin dövlət siyasətində strateji sahə kimi qorunmasına xüsusi önəm verirdi. 1993-cü ildən sonra ölkədə sabitliyin təmin olunması səhiyyə sisteminin yenidən qurulmasına imkan yaratdı. Çətin iqtisadi şəraitə baxmayaraq, səhiyyə müəssisələrinin fəaliyyəti qorunub saxlanıldı, əhalinin tibbi təminatı diqqət mərkəzində oldu. Bu gün Prezident İlham Əliyev tərəfindən səhiyyə sahəsində həyata keçirilən genişmiqyaslı islahatlar, yeni xəstəxanaların tikintisi, rəqəmsallaşma prosesləri, icbari tibbi sığorta sisteminin tətbiqi və regionlarda müasir tibb müəssisələrinin yaradılması məhz Heydər Əliyevin müəyyən etdiyi strateji kursun uğurlu davamıdır".

M.Məmmədli sonda vurğulayır ki, ümumilikdə, Heydər Əliyevin səhiyyə siyasəti Azərbaycanda insan amilinə əsaslanan, vətəndaş yönümlü və müasir səhiyyə sisteminin formalaşması üçün möhkəm təməl yaradıb. Bu irs bu gün də uğurla davam etdirilir və Azərbaycan səhiyyəsinin inkişafında əsas strateji istiqamətlərdən biri olaraq qalır.

XİLASKAR Kaspi 9 MAY ŞƏNBƏ 2026 9
ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV

XALQIN TƏKİDLİ TƏLƏBİ İLƏ HAKİMİYYƏTƏ QAYIDAN HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN XİLASKARINA ÇEVRİLDİ

# XALQI ZƏFƏRƏ APARAN LİDER



Ulu Öndər Heydər Əliyevin həm SSRİ zamanında, həm də müstəqillik illərində həyata keçirdiyi islahatlar müasir dövrdə də öz bəhrəsini verir. Ulu Öndərin dərin təməllər üzərində qurduğu uzaqgörən siyasəti bu gün də uğurlara aparan mayak rolunu oynayır.



ƏRTURAN İSMAYIL

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın taleyində mühüm rol oynayan tarixi şəxsiyyətdir. O, ötən əsrdə əsl xilaskarlıq missiyası həyata keçirərək dövləti tənəzzüldən tərəqqiyə yüksəldib, xalqın sosial-iqtisadi vəziyyətini yaxşılaşdırıb, ölkənin müstəqilliyinin qorunub saxlanılmasında, əbədi və dönməz xarakter almasında əsl fədakarlıq nümayiş etdirib.

İkinci Dünya müharibəsi illərində dövlət təhlükəsizliyi orqanlarında fəaliyyətə başlayan Ulu Öndər öz bacarığı və səriştəsi ilə qısa zamanda böyük etimad qazanıb. 1958-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) əks-kəşfiyyat şöbəsinin rəisi, 1964-cü ildə DTK-nın sədr müavini, 1967-ci ildə DTK-nın sədri təyin edilib, həmin il ona general-mayor rütbəsi verilib. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda isə Ümummilli Lider Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib.

Bu elə bir dövr idi ki, Azərbaycan SSR digər ittifaq üzvlərindən hər mənada geri qalırdı. Respublikada sosial-iqtisadi vəziyyət olduqca ağır idi. İqtisadiyyat, əhalinin məşğulluğunun əsasını təşkil edən sənaye və kənd təsərrüfatı acınacaqlı dövrünü yaşayırdı.

## 15 İL ƏRZİNDƏ 213 İRİ SƏNAYE MÜƏSSİSƏSİ

Belə bir zamanda Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyev kənd təsərrüfatının, sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafı, sosial məsələlərin həlli, əhalinin rifah halının yaxşılaşdırılması üçün uğurlu islahatlar həyata keçirdi. Böyük tikinti-quruculuq meydanına çevrilən Azərbaycanda təkcə 1970-1985-ci illərdə yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. Statistik məlumatlara görə, cəmi 15 il ərzində ölkədə 213 iri sənaye müəssisəsi işə salındı. Hətta bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tutdu. Ölkədə istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olundu.

## 1969-1982-Cİ İLLƏRDƏ BEŞ YENİ ALİ TƏHSİL MÜƏSSİSƏSİ AÇILDI



Tikinti-quruculuq tədbirləri çərçivəsində paytaxt Bakı ilə bərabər, respublikanın bütün rayonlarının simasını tamamilə dəyişdirən Ulu Öndər təhsil və səhiyyə sahəsində də böyük uğurlara imza atdı. Sözsüz ki, hər iki istiqamətdə islahatların həyata keçirilməsi, qısa zamanda ciddi irəliləyişin əldə edilməsi ixtisaslı kadr təminatı, maddi-texniki bazanın gücləndirilməsi, elmi-texniki yeniliklərin müvafiq sahələrdə tətbiqi ilə bilavasitə bağlıdır. Ona görə də Ümummilli Lider Heydər Əliyev böyük uzaqgörənlik nümayiş etdirdi, azərbaycanlı gənclərin əsl hamisinə çevrilərək onların SSRİ-nin qabaqcıl ali məktəblərində yüksək təhsil almasına şərait yaratdı. Bunun nəticəsində 1970-1980-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil alması mümkün oldu. Rəsmi məlumatlara görə, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə beş yeni ali təhsil müəssisəsi açıldı və ali məktəb tələbələrinin sayı 70 mindən 100 minədək artdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəbdə 105 fakültə, 450 kafedra var idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi.

1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 1965-ci ilə nisbətən üç dəfədən çox artaraq 2117-yə, 1982-ci ildə isə 4267-yə çatdırıldı. 1970-1980-ci illərdə respublikada 683,1 min şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə verilibdi ki, bu da 1946-1970-ci illərdəki müvafiq göstəricidən iki dəfə çoxdur.



## YENİ SƏHİYYƏ MÜƏSSİSƏLƏRİ İSTİFADƏYƏ VERİLİB

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-1980-ci illərdə yüzlərlə iri səhiyyə obyektləri də inşa olunub. Köhnə səhiyyə ocaqlarının yenidən qurulması, yenilərinin tikilməsi və ən müasir aparatlarla təchiz edilməsi, eləcə də əhalinin kütləvi surətdə dispanser qeydiyyatdan keçirilməsi istiqamətində tədbirlər həyata keçirilib. Urologiya Xəstəxanası, Diaqnostika Mərkəzi, Neyrocərrahiyyə Mərkəzi, Toksikoloji Mərkəz və digərləri o dövrlərdə yaradılan tibb müəssisələrindəndir.

## VƏTƏNDƏN KƏNARDAKI FƏALİYYƏT

Ümummilli Lider 22 il Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olub. 1974-1979-cu illərdə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsini tutub. 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında isə Siyasi Büronun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. O, Azərbaycandan kənarda məsul vəzifələr icra edərkən də həmvətənlərini unutmayıb, onların taleyinə biganə yanaşmayıb. SSRİ miqyasında həyata keçirilən sosial-iqtisadi layihələrin, yeni təhsil və səhiyyə obyektlərinin tikilməsinin Azərbaycanda da geniş vüsət almasına çalışıb. Çox təəssüf ki, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun 1980-ci illərin sonuna doğru yeritdiyi siyasi xətt Azərbaycan xalqının milli maraqlarına zidd olması ilə seçilib. Ümummilli Lider Heydər Əliyev öz nüfuzundan və təsir vasitələrindən istifadə edərək bu siyasətə qarşı bir müddət mübarizə aparıb. SSRİ rəhbərliyinin siyasətinin dəyişməyəcəyinin fərqinə varan Ulu Öndər 1987-ci ilin oktyabrında etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verib.

## YENİDƏN HAKİMİYYƏTƏ QAYIDIŞ

Ümummilli Lider Heydər Əliyev ikinci dəfə xilaskarlıq missiyası ilə 1993-cü ildə xalqının köməyinə çatıb. Siyasi səbatsızlıq, dövlət idarəçiliyində naşılıq, vəzifə kürsüsü uğrunda mübarizə Azərbaycanda daxili böhran yaradıb. Ermənistanın silahlı təcavüzünə məruz qalan, ərazisinin 20 faizi işğal olunan Azərbaycan paralel olaraq vətəndaş müharibəsinə sürüklənib. Məhz belə bir çətin dövrdə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Ulu Öndər yenidən Azərbaycanın xilaskarına çevrilib, 1993-2003-cü illərdə ölkəmizə rəhbərlik edib. Ümummilli Lider ölkə daxilində böhranı aradan qaldırmaqla yanaşı, cəbhə xəttində uğurlu Horadiz əməliyyatı keçirməklə Ermənistanı 12 may 1994-cü ildə atəşkəs haqqında saziş imzalamağa məcbur edib. Ulu Öndər Heydər Əliyev ölkəni iqtisadi, siyasi, sosial tənəzzüldən xilas etmək üçün mühüm addımlar atıb. Bu istiqamətdə böyük uzaqgörənliklə həyata keçirilən ən mühüm tədbir uzunmüddətli neft strategiyası hesab olunurdu. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması, ardınca Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi ilə bugünkü iqtisadi intibahımızın təməli qoyulub. 1996-cı ildən MDB məkanında ilk dəfə Azərbaycanda torpaq islahatlarının həyata keçirilməsi sayəsində kənd təsərrüfatının ayrı-ayrı sahələrində ciddi irəliləyişlər hiss olunmağa başlayıb.

## ORDU QURUCULUĞUNDAKI ROLU



Ümummilli Liderin 1971-ci ildə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin müstəqillik illərində Hərbi Liseyə çevrilməsi, Azərbaycan Ordusunun yaradılmasında, ölkəmizin ərazi bütövlüyünün qorunmasında mühüm rol oynaması da bir faktdır. Ordumuzda xidmət edən yüksək rütbəli zabit heyətinin bir çoxu bu hərbi təhsil müəssisəsinin yetirməsi olub. Məhz onların komandanlığı altında əsgərlərimiz erməni təcavüzünə qarşı müqavimət göstərib. Sonralar həm Ulu Öndər Heydər Əliyevin, həm də onun layiqli davamçısı, Prezident İlham Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi islahatlar Azərbaycan Silahlı Qüvvələrinin peşəkarlığını, gücünü, qüdrətini artırıb. 2020-ci ilin 44 günlük Vətən müharibəsində, 2023-cü ilin bir günlük antiterror əməliyyatlarında Azərbaycan Ordusu ərazilərimizi işğaldan tam azad etməklə, suverenliyimizi təmin etməklə yeni tarix yazıb, regionda yeni siyasi reallıq yaradıb. Ümummilli Lider Heydər Əliyevin, Prezident İlham Əliyevin daim gücləndirdiyi Azərbaycan Ordusu Qarabağı işğaldan azad etməklə iki yüz illik tariximizdə bizə əsl zəfər yaşadıb.

Ulu Öndər Heydər Əliyevin həm SSRİ zamanında, həm də müstəqillik illərində həyata keçirdiyi islahatlar müasir dövrdə də öz bəhrəsini verir. Ulu Öndərin dərin təməllər üzərində qurduğu uzaqgörən siyasəti bu gün də uğurlara aparan mayak rolunu oynayır.



ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV

# HEYDƏR ƏLİYEV FONDUNDAN NÖVBƏTİ HUMANİST ADDIM

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ərəfəsində Pekin Uşaq Rifah İnstitutunda müalicə alan xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün xeyriyyə aksiyası keçirilib.



Heydər Əliyev Fondu və Azərbaycanın Çindəki səfirliyi Pekin Uşaq Rifah İnstitutunda müalicə alan xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün xeyriyyə aksiyası keçirib. Layihə çərçivəsində fiziki və zehni məhdudiyyətli uşaqların tədrisinə dəstək məqsədilə süni intellekt əsasında hazırlanmış xüsusi tədris avadanlıqları hədiyyə olunub.

**“XALQ YEGANƏ NİCAT YOLUNU HEYDƏR ƏLİYEVDƏ GÖRDÜ”**

Tədbirdə Heydər Əliyev Fondunun öz fəaliyyətini Ümummilli Liderin sadiq olduğu humanizm prinsipləri əsasında qurduğu, Fondun prezidenti Mehriban Əliyevanın xeyriyyəçilik təşəbbüslərinin təkcə Azərbaycanı deyil, dünyanın bir çox ölkəsini əhatə etdiyi bildirilib.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ərəfəsində təşkil olunan tədbirdə çıxış edən Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən danışıb. Bildirib ki, 1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan onu itirmək təhlükəsi qarşısında idi. Azərbaycan xalqı ağır şəraitdən çıxmağın yeganə nicat yolunu Heydər Əliyevdə gördü. Xalqın iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıdan Heydər Əliyev Azərbaycan Respublikasını, Azərbaycan xalqını, müstəqilliyimizin bərpası kimi tarixi nailiyyəti məhv olmaqdan xilas etdi.

## QƏDİM İPƏK YOLUNUN BƏRPASI

Ümummilli Liderin müdrikliyi, qətiyyəti, siyasi bacarığı və çoxillik idarəçilik səriştəsi ilə Azərbaycanda bütün sahələrdə əsaslı dönüş başladığını bildirən diplomat əlavə edib ki, dahi rəhbər ölkəmizin beynəlxalq aləmdə nüfuzunun güclənməsi, iqtisadi yüksəlişi üçün tədbirlər görməyə başlayıb. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və bilavasitə xidmətləri ilə reallığa çevrilən qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri kimi qlobal layihələr müstəqilliyimizi sarsılmaz və əbədi edib.

**ULU ÖNDƏR AZƏRBAYCAN-ÇİN MÜNASİBƏTLƏRİNƏ XÜSUSİ DİQQƏT YETİRİRDİ**

Səfir diqqətə çatdırıb ki, Ulu Öndərin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri də özünü əvəz edə biləcək siyasi varis yetişdirməsi idi. Bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü praqmatik və uzaqgörən siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunub, ölkəmizin dünyada nüfuzu xeyli yüksəlib. Həm Ulu Öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin Azərbaycan-Çin münasibətlərinin inkişafına böyük diqqət yetirdiklərini vurğulayan diplomat əlavə edib ki, məhz həmin yanaşmanın nəticəsində Azərbaycan-Çin münasibətləri hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.





# SOCAR-IN KOMANDASI MİNİFUTBOL TURNİRİNİN QALİBİ OLUB

Dövlət qurumlarının əməkdaşları arasında Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş minifutbol turniri keçirilib. Turnirdə ayrı-ayrı qurumları təmsil edən komandalar güclərini sınayıblar.

Üçüncü yer uğrunda keçirilən matçda Ədliyyə kollektivi Baş Prokurorluq komandasını 2:1 hesabı ilə məğlub edib. Final görüşündə isə SOCAR “Azərişıq” komandasına 5:0 hesabı ilə qalib gələrək turnirin qalibi olub. Qarşılaşmalar Bakı Tennis Akademiyasında keçirilib.

Daha sonra turnirdə ilk 3 yeri tutan komandalara mükafatlar təqdim edilib. Üçüncü olan Ədliyyə kollektivi bürünc medalla mükafatlandırılıb. Finalda uduzan “Azərişıq” komandasının üzvləri gümüş, bütün görüşləri qələbə ilə başa vuran SOCAR-ın üzvləri isə qızıl medallarla təltif edilib. Bundan başqa, SOCAR komandasına yarışın ən böyük mükafatı olan kubok təqdim olunub.

“Turnirdə çox güclü komandalar mübarizə apardı. Qalib olduğumuz üçün çox xoşbəxtik. Bu qələbə oyunçularımızın zəhməti nəticəsində başa gəldi”, - bu sözləri SOCAR komandasının baş məşqçisi Fuad Rzayev Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumları arasında IV minifutbol turnirinin final oyunundan sonra deyib.

O, “Azərişıq” komandası ilə görüşdə böyükhesablı qələbə gözləmədiklərini və nəticənin onlar üçün sürpriz olduğunu söyləyib: “5:0 hesabı ilə rəqibi üstələdik. Oyuna ciddi hazırlaşmışdıq. Final qarşılaşmasında erkən qollar bizə əlavə motivasiya verdi. Rəqib də güclü komandadır və sona qədər mübarizə apardı”.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 616
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.



ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV

# BÖHRANDAN QÜDRƏTLİ SOSİAL DÖVLƏTƏ

**Ümummilli Lider Heydər Əliyevin sosial siyasəti iki sarsılmaz prinsip üzərində qurulmuşdu: sosial ədalət və sosial rifah. 1994-cü ildən etibarən əhalinin sosial müdafiəsini gücləndirən fərmanlar və Konstitusiyada təsbit edilən hüquqlar bugünkü qüdrətli dövlətimizin ictimai memarlığını təşkil edir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Hər bir dövlətin əsl qüdrəti vətəndaşlarının sosial rifahı və həyat səviyyəsi ilə ölçülür. Təhsil, səhiyyə və məşğulluq kimi fundamental ehtiyacların qarşılanması güclü iqtisadi təmələ əsaslanan məqsədyönlü sosial siyasət tələb edir. Müstəqilliyimizin ilk illərində isə Azərbaycan məhz bu təməllərin sarsılması səbəbindən dərin böhranla üzləşmişdi. Yüksək inflyasiya, kütləvi yoxsulluq, aylarla gecikən pensiyalar və təminatsız qalan həssas qruplar, xüsusən də qaçqınlar və şəhid ailələri bu böhrandan əziyyət çəkən əsas kateqoriyalar idi. Belə bir mürəkkəb dövrdə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəni sosial fəlakətdən xilas etdi. Onun 1994-cü ildə imzaladığı fərmanlar əhalinin sosial müdafiəsini gücləndirməklə yanaşı, maliyyə sabitliyinin də əsasını qoydu.

### "HƏMİŞƏ AZƏRBAYCANIN ZƏHMƏTKEŞ İNSANINI DÜŞÜNÜRDÜ"

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevin sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və vətən qarşısında xidmətləri misilsizdir. O, həm SSRİ, həm də müstəqillik dövründə Azərbaycana rəhbərlik edərkən həmişə xalqını düşünmüş, vətəndaşların sosial rifahını daim diqqətdə saxlamışdı: "Heydər Əliyev həmişə Azərbaycanın zəhmətkeş insanını düşünürdü. Onun respublikaya rəhbərlik etdiyi 14 il müddətində Bakıda minlərlə mənzil tikilərək zəhmətkeşlərə verildi. Həmin dövrdə Azərbaycanda orta əməkhaqqı üç dəfəyə yaxın artdı. Kəndlərimiz inkişaf etdi, xüsusən də üzümçülük və pambıqçılıq sahələrində dirçəliş yarandı, kəndlilərin həm əməkhaqları və gəlirləri yüksəldi, həm də sosial vəziyyətləri yaxşılaşdı".

### SOSİAL SİYASƏTLƏ BAĞLI 60-DAN ÇOX QANUN QƏBUL EDİLDİ

M.Quliyevin fikrincə, müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə də Ulu Öndər tərəfindən ölkənin sosial siyasətinin formalaşması üçün bütün zəruri işlər görüldü. Azərbaycanın Konstitusiyası məhz Ulu Öndər tərəfindən hazırlandı və ümumxalq referendumu ilə qəbul olundu: "Bu Konstitusiyada əhalinin sosial, əmək, pensiya və istirahət hüquqları təmin edildi. Heydər Əliyevin imzası ilə qəbul olunan 60-dan çox qanun, fərman və sərəncam da sosial siyasətin həyata keçirilməsi üçün geniş hüquqi çərçivə rolunu oynadı. Ulu Öndər şəhid ailələrinin, qazilərin, qaçqın və məcburi köçkünlərin, eləcə də valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsini daim diqqətdə saxlayır, onların həyat şəraitinin yaxşılaşdırılması üçün mühüm fərman və sərəncamlar imzalayırdı".



### SOSİAL RİFAH VƏ SOSİAL ƏDALƏT PRİNSİPLƏRİ

Millət vəkilinin sözlərinə görə, Ulu Öndərin sərəncamı ilə Azərbaycanın pensiya islahatları konsepsiyası qəbul olundu və ölkədə yeni pensiya sisteminin qurulmasına başlanıldı: "Əlilliyi olan şəxslərin reabilitasiyası, sosial müdafiəsi və protezləşdirilməsi məqsədilə də fərman və sərəncamlar imzalandı. Pensiya və əməkhaqlarının davamlı artırılması, qaçqın və məcburi köçkünlərin sosial rifahının yaxşılaşdırılması üçün onlara müavinətlərin verilməsi birbaşa Heydər Əliyevin xalqa göstərdiyi qayğının ifadəsi idi".

Deputat bildirdi ki, Heydər Əliyevin sosial siyasətinin mərkəzində iki əsas prinsip dayanırdı - sosial rifah və sosial ədalət: "Sosial ədalət ölkənin maddi və mənəvi nemətlərinin hər kəs üçün əlçatan olmasını təmin edirdi. Sosial rifah isə iqtisadi uğurlardan və inkişafdan əldə olunan büdcə vəsaitləri bölüşdürülərkən sosial müdafiəyə ehtiyacı olan insanların bu paydan kənarda qalmamasına hesablanmışdı. Həmin dövrdə Ulu Öndərin sərəncamları ilə böyük özəlləşdirmə proqramları icra edildi və vətəndaşlar Azərbaycanın yaratdığı əmlakdan pay ala bildilər. Torpaq islahatlarının həyata keçirilməsi nəticəsində isə bütün kəndlilər, kəndə bağlı insanlar öz pay torpaqlarına sahib oldular. Baxmayaraq ki, o illər çox çətin idi və ölkə iqtisadiyyatı ağır bir vəziyyətdə idi, məktəblərin, uşaq bağçalarının və xəstəxanaların inşası üçün lazımi imkanlar yaradıldı".

## "SOSİAL CƏMİYYƏTİN İNŞASI BİLAVASİTƏ ONUN ADI İLƏ BAĞLIDIR"




Millət vəkili Azər Badamovun sözlərinə görə, Ümummilli Lider təkcə Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərlə deyil, bütöv bir tarixə istiqamət verdiyi üçün də əvəzolunmaz dahi şəxsiyyətdir. Onun hakimiyyətə qayıdışından sonra ölkəmizin imzası beynəlxalq aləmdə öz layiqli yerini tutmağa başladı: "Xaos və anarxiyadan yenicə çıxmış, ağır həyat şəraitinə məhkum edilmiş xalqın rifahının yaxşılaşdırılması bu siyasətin mərkəzində dayanırdı. "Dövlət xalq üçün çalışmalıdır" tezisini fəaliyyətinin əsas meyarına çevirən Ulu Öndər ilk növbədə o dövrdə qaçqın və məcburi köçkün adlandırdığımız insanların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlərə başladı. Çadır düşərgələrində yaşamağa məhkum olan insanların qısa zamanda yeni mənzillərlə təmin edilməsi onun insan taleyinə verdiyi yüksək dəyərin bariz sübutu idi. Aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi, etibarlı pensiya sisteminin qurulması və sosial sahələrin inkişaf istiqamətlərinin düzgün müəyyənləşdirilməsi əsas hədəflər kimi qarşıya qoyulmuşdu. "Azərbaycan Respublikasında pensiya islahatları Konsepsiyası" Ümummilli Liderin 2001-ci il 17 iyul tarixli Sərəncamı ilə təsdiq olundu. Bundan əvvəl isə, 1998-ci il 14 may tarixli Sərəncamla "1998-2001-ci illər üçün əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi üzrə Dövlət Proqramı" qəbul edilmişdi ki, bu da dövlətin həssas qruplara davamlı qayğısının göstəricisi idi. Əsası qoyulan bu sosial islahatlar bu gün Prezident İlham Əliyevin də fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir".





ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV

# TƏHSİLƏ VERİLƏN MÜSTƏSNA DƏYƏR



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

"Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram"- deyirdi Ulu Öndər Heydər Əliyev. O, bu sözləri müəllim əməyinə, təhsilə və elmə verdiyi yüksək dəyərin ifadəsi kimi 1998-ci ildə Azərbaycan müəllimlərinin XI qurultayında səsləndirmişdi. Ulu Öndər Azərbaycan cəmiyyətinin gələcək inkişafını insan kapitalının formalaşdırılması ilə əlaqələndirərək təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Onun "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər və mənafelər əsasında qurulmalıdır" fikri bu yanaşmanın mahiyyətini açıq şəkildə ifadə edir. Ötən əsrin 70-ci illərindən başlayaraq Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatlar təhsil sisteminin inkişafında yeni mərhələnin əsasını qoydu.

### "MÜƏLLİM PEŞƏSİNƏ MÜNASİBƏTİ SƏMİMİ VƏ FƏRQLİ İDİ"

Milli Məclisin deputatı Elçin Mirzəbəyli qeyd edir ki, Azərbaycanın müasir dövlətçilik tarixindən danışarkən Heydər Əliyevin təhsil siyasətini ayrıca vurğulamamaq mümkün deyil: "Ulu Öndər yaxşı anlayırdı ki, bir xalqın gələcəyi onun təbii sərvətləri ilə deyil, savadlı insanı, düşünən gəncliyi və güclü müəllimi ilə müəyyən olunur. Bu səbəbdən təhsil məsələsi onun fəaliyyətində həmişə xüsusi yer tutub. Müəllim peşəsinə münasibəti səmimi və fərqli idi. Bu yanaşma yalnız çıxışlarda deyil, həyata keçirilən siyasətdə də öz əksini tapırdı. "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram" fikri onun müəllimə və məktəbə baxışının ən dolğun ifadəsi idi. O, müəllimi sadəcə peşə sahibi deyil, millətin gələcəyini formalaşdıran mənəvi rəhbər hesab edirdi".

### HEYDƏR ƏLİYEVİN STRATEJİ BAXIŞININ NƏTİCƏSİ

Millət vəkili bildirir ki, müstəqillik illərində Heydər Əliyevin təhsil siyasəti yeni məzmun qazandı: "1990-cı illərin mürəkkəb dövründə ölkədə bir çox sahə böhranla üzləşsə də, təhsil diqqətdən kənarda qalmadı. Ulu Öndər yaxşı anlayırdı ki, dövlətin gələcəyi milli düşüncəli, savadlı və vətənpərvər gənclərin yetişdirilməsindən keçir. Onun rəhbərliyi ilə təhsil sistemində milli məzmunun gücləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Ana dilinin tədrisdə əsas yer tutması, milli-mənəvi dəyərlərin qorunması, gənclərin azərbaycançılıq ruhunda yetişdirilməsi həmin siyasətin əsas xəttini təşkil edirdi. Eyni zamanda, dünya təhsil sisteminə inteqrasiya, yeni tədris metodlarının tətbiqi və islahatların başlanması da bu strateji baxışın nəticəsi idi".



**Ulu Öndər yaxşı bilirdi ki, xalqın gələcəyi daha çox savadlı insanı, düşünən gəncliyi və güclü müəllimi ilə müəyyən olunur. Bu səbəbdən təhsil məsələsi onun fəaliyyətində həmişə xüsusi yer tuturdu.**



Elçin Mirzəbəyli

Gülnarə Əzizova

## Təhsil sahəsində ilk ciddi dövlət proqramları

Təsadüfi deyil ki, Azərbaycanda təhsil sahəsində ilk ciddi dövlət proqramları da məhz onun təşəbbüsü ilə qəbul edildi. Bu proqramlar ölkənin uzunmüddətli inkişaf konsepsiyasının mühüm hissəsinə çevrildi və sonrakı dövrdə təhsil sisteminin müasir əsaslar üzərində qurulmasına zəmin yaratdı. Millət vəkili əlavə edir ki, 1969-cu ildən başlayaraq ölkədə təhsil sahəsində geniş dəyişikliklər həyata keçirildi: yeni məktəblər tikildi, ali təhsil müəssisələrinin imkanları genişləndirildi, kənd məktəblərinin vəziyyəti yaxşılaşdırıldı. Ən uzaqgörən addımlardan biri minlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi idi. Bu qərarın nəticələri sonrakı onilliklərdə özünü göstərdi. Həmin gənclər ölkənin elmində, səhiyyəsində, sənayesində və dövlət idarəçiliyində mühüm rol oynayan kadr potensialını formalaşdırdılar.

## "O an mənim üçün möcüzə idi"

Həmin kadrlardan biri də bu gün Azərbaycan Tibb Universitetinin Biokimya kafedrasının müdiri, professor Gülnarə Əzizovadır. O, 1977-ci ildə Bakı şəhərindəki 18 nömrəli məktəbi qızıl medalla bitirdikdən sonra Moskva Dövlət Universitetinə qəbul olunub: "Elanda gördüm ki, Moskva Dövlət Universitetinə müsabiqədənkənar qəbul var. Həmin dövrdə öz dilində təhsil alanlar rus dilində nüfuzlu universitetlərə qəbul ola bilməzdilər. Qızıl medalın da xüsusi rolu yox idi. Bu şəraiti Heydər Əliyev yaratmışdı. Universitetlərdə xüsusi kvota ayrılmışdı ki, bizim tələbələr də bu imkandan yararlansınlar. Mən də qəbul oldum və biologiya fakültəsinin biokimya ixtisasında təhsil almağa başladım".

Professor qeyd edir ki, həmin universitetdə təhsil almaq onun həyatında dönüş nöqtəsi olub: "Bu gün də o illəri xatırlayanda sanki bir möcüzə kimi gəlir. O zaman Moskva Dövlət Universiteti dünyanın ən nüfuzlu ali məktəblərindən biri idi. Təhsil isə kifayət qədər çətin idi. Amma biz bilirdik ki, arxamızda güclü dəstək var. Moskvada xüsusi nümayəndəlik fəaliyyət göstərirdi və problemlər yarandıqda müraciət edib həm maddi, həm də mənəvi dəstək ala bilirdik. Yaxşı oxuduğuma görə aspiranturaya qəbul olundum, dissertasiyamı müdafiə etdim. İndi isə çalışıram ki, orada qazandığım bilikləri burada tətbiq edim".

G.Əzizova üçüncü kursda oxuyarkən Heydər Əliyev ilə görüşünü də xüsusi xatırlayır: "Görüşə bir qədər gecikmişdim. Zala daxil olanda gördüm ki, çıxışı zamanı əlaçı tələbələr sırasında mənim də adımı çəkir. Bu, unudulmaz an idi. Görüşdən sonra özümü çox motivasiyalı hiss edirdim, elə bilirdim ki, ayağım yerdən kəsilib".

Heydər Əliyevin təşəbbüsü ilə həmin dövrdə 15 mindən çox azərbaycanlı gənc keçmiş SSRİ-nin 50-dən artıq şəhərində yerləşən 170 ali məktəbdə təhsil alaraq müxtəlif ixtisaslara yiyələnib. Ümummilli Lider xaricdə təhsil alan gəncləri daim diqqətdə saxlayır, onları "Azərbaycanın milli sərvəti" adlandırırdı. Onun uzaqgörən siyasəti nəticəsində ölkə üçün güclü kadr potensialı formalaşdı və bu potensial sonrakı dövrdə Azərbaycanın inkişafında mühüm rol oynadı.

Ulu Öndər 1998-ci ildə Yaponiyada təhsil alan azərbaycanlı tələbələrlə görüşündə deyirdi: "Azərbaycan gənclərinin dünya ölkələrində təhsil alması mənim həmişə arzum olub. O vaxt bu, SSRİ çərçivəsində mümkün idi, bu gün isə dünya ölkələri bizim üçün açıqdır". Bu gün həmin siyasət Prezident İlham Əliyev tərəfindən davam etdirilir və Azərbaycan gənclərinin beynəlxalq təhsil imkanları daha da genişləndirilir.



ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV

# "ZAMAN KEÇDİKCƏ DƏYƏRİ DAHA DA BÖYÜYƏCƏK"

Ulu Öndər Heydər Əliyev incəsənəti və mədəniyyəti xalqın mənəvi zənginliyinin və milli kimliyinin göstəricisi hesab edirdi. Bu gün ədəbiyyat və sənət adamları onu məhəbbətlə xatırlayırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Ulu Öndər Heydər Əliyevin Azərbaycan incəsənətinə, ədəbiyyatına və mədəniyyətinə olan sevgisi və qayğısı onun dövlətçilik fəaliyyətinin təməl sütunlarından biri olub. Ulu Öndər incəsənəti xalqın mənəvi zənginliyinin və milli kimliyinin göstəricisi, xalqın böyük sərvəti hesab edirdi. Bu gün ədəbiyyat və sənət adamları onu məhəbbətlə xatırlayırlar.

### "BİZ ONA HƏMİŞƏ RƏHMƏT OXUYURUQ"

Xalq artisti Rafiq Əzimov "Ulu Öndər bizim sənətimizi çox sevirdi", - deyə xatırlayır: "O, teatr sənətinin vurğunu idi. Bu da səbəbsiz deyildi, gənc olarkən aktyor olmağı arzulamışdı. Müəllimi İbrahim Həmzəyev dram dərnəyinin rəhbəri olub. Mən teatrda onların bir-birini necə qucaqlamalarının şahidi olmuşam. O, həmişə tamaşalarımıza baxmağa gələr, sonda da bütün kollektivlə şəkil çəkdirərdi. Xüsusən tarixi əsərlərin vurğunu idi. Tamaşaları təcrübəli teatrşünaslar kimi təhlil edirdi". R.Əzimov Ulu Öndərin tamaşalara böyük marağından danışır: "Yadımdadır, "Burla Xatun" tamaşasına gələndə pyesin müəllifi Nəbi Xəzridən yubileyinin nə vaxt olacağını soruşdu. Nəbi Xəzri "elə bu gün", - deyə cavab verdi. "Sən nə danışırsan? Sən cavan oğlansan ki..." - deyə zarafat etdi. Sonra da "onda sənə hədiyyə düşür, 70 ilik yubileyindir", - dedi. Nəbi Xəzri də "Sizin bu tamaşaya gəlib baxmağınız elə bizim üçün ən böyük hədiyyədir", - deyə təşəkkür etdi.

Sabit Rəhmanın əsərlərindən parçaları oynayanda da axıra qədər tamaşaya baxdı və işimizə yüksək qiymət verdi. O, bizim əksər tamaşalarımıza həvəslə gəlirdi. Biz çox sevinirdik ki, Ulu Öndər tamaşalarımıza böyük maraqla baxır və hamını ad və soyadı ilə tanıyır. Biz ona həmişə rəhmət oxuyuruq. Övladlarımıza, nəvə-nəticələrimizə onun bizə göstərdiyi qayğıdan danışırıq. İndi bu qayğını bizə Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev göstərir".

## "Həmişə səfərləri zamanı bizi özü ilə rayonlara aparırdı"

Xalq şairi Sabir Rüstəmxanlı bildirdi ki, Heydər Əliyev Azərbaycanın tarixən yetirdiyi nadir şəxsiyyətlərdəndir: "Onun ən böyük şəxsi keyfiyyətlərindən biri Azərbaycan tarixini yaxşı bilməsi və mədəniyyətimizə xüsusi diqqət göstərməsi idi. Azərbaycanın yetişdirdiyi böyük sənətkarları həmişə önə çıxarmağa, yubileylərini yüksək səviyyədə keçirməyə çalışırdı. "Nəsimi", "Babək" haqqında filmlər onun təşəbbüsü ilə çəkilmişdi. Hüseyn Cavidin nəşinin qalıqları onun təkidi və Moskvadakı nüfuzu ilə Azərbaycana gətirilmişdi. Cavid Naxçıvanda dəfn olundu, məqbərəsi tikildi, Bakıda möhtəşəm abidəsi qoyuldu".

S.Rüstəmxanlı Ulu Öndərlə rayonlara səfərlərini də xatırlayır: "Biz gənc şairlər idik. Həmişə səfərləri zamanı bizi özü ilə rayonlara aparırdı. Pambıq tarlalarına, taxıl zəmilərinə gedir, kəndlilərlə, zəhmətkeşlərlə görüşlərdə iştirak edirdik. Sonda bizi qəbul edir və deyirdi: "Mən sizi gətirməmişəm ki, qayıdandan sonra haqqımda tərifli yazılar yazasınız. Gətirmişəm ki, bizim insanlarımızı, milli xüsusiyyətlərimizi görəsiniz, insanlarla ünsiyyətdə olasınız". O, bütün ciddi ədəbiyyat tədbirlərində iştirak edirdi. Yazıçıların qurultayında ədəbiyyat adamı kimi çıxış edirdi. Bizim bütün qeydlərimizi, tənqidlərimizi dinləyirdi, anında da həlli üçün göstəriş verirdi". S.Rüstəmxanlı deyir ki, Heydər Əliyev müstəqillik illərində də ədəbiyyata olan münasibətini dəyişməyib: " Tarix öz məntiqi və axarı ilə hər kəsə qiymət verir. Zaman keçdikcə onun dəyəri daha da böyüyəcək".

### SƏN ELƏ BİR ZİRVƏSƏN Kİ...

Əməkdar İncəsənət xadimi, şair Baba Vəziroğlu da xatırlayır ki, Ulu Öndər hər dəfə səfərlərə gedəndə bir neçə sənət adamını özü ilə aparırdı: "Belə səfərlərdə çay süfrələrində vəzifə adamları ilə deyil, sənət adamları ilə oturardu. Zəhmi o qədər ağır idi ki, onun yanında nəinki söz demək, çay içməyə də ehtiyat edirdin. Sıxılmağımızı görəndə, aranı isinişdirmək üçün səmimi söhbətlər edirdi. İllər boyu onunla səfərlərim, onu yaxından izləməyim sonradan "Sən elə bir zirvəsən ki" mahnısının yaranmasına səbəb oldu. Bu mahnı Ulu Öndərin şəxsiyyətini və fəaliyyətini bütünlüklə əks etdirir".



Baba Vəziroğlu

Sabir Rüstəmxanlı

## "Səttar Bəhlulzadənin yaradıcılığını çox sevirdi"

"Heydər Əliyev dahi şəxsiyyət olub", - deyə Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov xatirələrini bölüşdü: "Heydər Əliyev həmişə incəsənət, mədəniyyət və ədəbiyyat sahəsinə xüsusi diqqət göstərib. 1969-cu ildə hakimiyyətə gələndə verdiyi ilk sərəncamlardan biri Rəssamlar İttifaqının sərgi salonunun yaradılması ilə bağlı oldu. Tahir Salahovu çağırıb: "Bu, məndən sizə hədiyyə olsun", - dedi. Heydər Əliyevin rəssamlığa böyük marağı vardı. Çəkdiyi əsərlərdən bir neçəsi Naxçıvanda Heydər Əliyev Muzeyində nümayiş olunur. Həmişə "Mən rəssam olmaq istəyirdim" deyirdi. Ulu Öndər rəssamların sərgisində iştirak edir və onların yaradıcılığına böyük qiymət verirdi. Rəssamların yaşayışını, evlə təmin olunmalarını, xəstə olanda xaricə müalicəyə göndərilmələrini, maddi təminatlarını diqqətdə saxlayırdı. Həmişə deyirdi ki, Azərbaycan rəssamları dünyada tanınan sənətkarlardır. Təkcə mən yox, hamımız onlara dəstək olmalıyıq". A.İbrahimov bildirir ki, Heydər Əliyev sənətlə, mədəniyyətlə yaşayan bir şəxsiyyət olub: "Səttar Bəhlulzadənin yaradıcılığını çox sevirdi. Onun sərgisi açılanda əsərləri haqqında elə fikirlər söylədi ki... Evində Azərbaycan rəssamlarının əsərlərindən ibarət gözəl kolleksiyası vardı". A.İbrahimov bildirir ki, Heydər Əliyev rəssamlığının inkişafı üçün böyük işlər görüb: "Rəssamlar üçün yaşayış binası tikdirdi. 750-dən çox rəssama emalatxana bağışladı. Rəssamların yubileyləri olanda zəng edib təbrik edər, problemləri ilə maraqlanardı".



Rafiq Əzimov

Ağaəli İbrahimov

Foto: Rüfət Mikayılov/Global Photostock




# RƏSMİ GÖRÜŞLƏRİN QEYRİ-RƏSMİ ÇALARLARI

“Bir səfərin izi ilə” layihəsi çərçivəsində hazırlanan filmlər Ulu Öndər Heydər Əliyevin müxtəlif ölkələrə rəsmi səfərlərinin qeyri-rəsmi tərəflərinə də işıq tutur. Çəkiliş qrupu Ulu Öndərin səfər etdiyi şəhərlərə gedir, olduğu məkanları ziyarət edir və maraqlı anları təqdim edir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Heydər Əliyev Mərkəzində Ümummilli Lider Heydər Əliyevin İtaliya və ABŞ-ya rəsmi səfərlərinə həsr olunan “Bir səfərin izi ilə” filmlərinin nümayişi böyük maraqla qarşılandı.

Layihə Azərbaycanın müasir xarici siyasətinin formalaşmasında Ulu Öndərin fəaliyyətini geniş auditoriyaya çatdırmağı, gənclərin Ümummilli Liderin siyasi irsi ilə daha yaxından tanış olmasını və vətənpərvərlik ruhunun gücləndirilməsini hədəfləyir. Filmlərdə yalnız rəsmi səfərlərin protokol çərçivəsindəki məqamları deyil, eyni zamanda protokoldan kənarda qalan detalları da peşəkarlıqla işıqlandırılıb.

Layihənin həyata keçirildiyi müddətdə yaradıcı heyət Heydər Əliyevin İtaliya, Çin, Yaponiya, Türk dünyası, Böyük Britaniya, Fransa, Belçika və Lüksemburq səfərləri haqqında sənədli filmlər hazırlayıb.

### İNCƏ DİPLOMATİYA VƏ MESAJLAR

Layihə rəhbəri, tanınmış səyyah Azər Qərib bildirdi ki, layihə çərçivəsində indiyə qədər çəkilən ekran əsərləri tamaşaçılara Heydər Əliyevin rəsmi səfərlərinin qeyri-rəsmi tərəflərini nümayiş etdirir: “Filmlərdə biz Ulu Öndərin rəsmi səfərlərinə fərqli rakursdan baxmağa çalışmışıq. Həmçinin onun təkcə bir lider kimi deyil, bir insan kimi xüsusiyyətlərini göstərmək istədik. Biz Ulu Öndərin fəaliyyəti ilə bağlı arxivlərə baxır, tamaşaçı üçün maraqlı ola biləcək məqamları seçirdik. Əlbəttə, siyasəti unutmurduq. Çünki hər bir səfərin arxasında siyasət dayanırdı. Filmlərdən də görünür ki, Ulu Öndərin hər bir sözündə incə diplomatiya və mesajlar vardı”. Layihənin 8-ci filmi - “Bir səfərin izi ilə - ABŞ” filminə gəlincə, A.Qərib bildirdi ki, ekran əsəri “Heydər Əliyev və diplomatiya məktəbi” layihəsi çərçivəsində hazırlanıb və Ulu Öndərin zəngin irsinin öyrənilməsi və təbliği məqsədi daşıyır: “Filmdə, eyni zamanda, Ulu Öndərin Azərbaycanla ABŞ arasında dostluq əlaqələrinin formalaşmasında oynadığı xüsusi rol barədə tarixi faktlar təqdim olunub. Filmdə kadr arxasında qalan məqamlar və Heydər Əliyevin qeyri-formal görüşləri də yer alıb”.

Layihə rəhbəri bildirdi ki, filmlər tamaşaçıya səfərlərin həm mahiyyətini, həm də məqsədini daha dolğun şəkildə çatdırır: “Bu məqsədlə çəkiliş qrupu Ulu Öndərin səfər etdiyi şəhərlərə gedir, həmin məkanları ziyarət edir və onların tarixini təqdim edir. Bu yanaşma izləyicinin mövzuya daha dərindən bələd olmasına imkan yaradır, Ulu Öndərin şəxsiyyətini daha yaxından tanıtmağa kömək edir”.

### GƏLƏCƏK NƏSİLLƏR ÜÇÜN ƏSL VİZUAL ENSİKLOPEDİYA

Filmin redaktoru Ayaz Mirzəyev bildirir ki, layihə ilə bağlı dövlət televiziyasının arxivində səfər kasetlərini nəzərdən keçiriblər: “İlk baxdığımız da ABŞ səfəri ilə bağlı kasetlər idi. Biz bu kasetlərə “maraqlı bir tarixi kəşf edəcəyik” ehtirası ilə baxırdıq. Çünki bir çox kadrları ilk dəfə görürdük. Media sahəsindəki şəxsi təcrübəmdən bilirəm ki, səthin altında həmişə daha böyük bir həqiqət, məna olur. Biz də tamaşaçıların görmədiyi və ya diqqətindən yayınan o maraqlı həqiqətləri üzə çıxarmaq istəyirdik”. A.Mirzəyev bildirir ki, “Bir səfərin izi ilə - ABŞ” sənədli filmi təkcə bir səfərin xronikası deyil: “Tam cəsarətlə deyə bilərəm ki, bu film müstəqil Azərbaycanın formalaşmasının mühüm bir mərhələsinə baxışdır və gələcək nəsillərimiz üçün əsl vizual ensiklopediyadır”.




## UNUDULMAZ VƏ NADİR KADRLAR

“Bir səfərin izi ilə - İtaliya” filminin yenidən nümayişi İtaliya Respublikasının baş naziri Corcia Meloninin ölkəmizə rəsmi səfəri zamanına təsadüf etdi. Ulu Öndərin 1997-ci ildə bu ölkəyə rəsmi səfəri yaddaqalan olub. Film tamaşaçıları Heydər Əliyevin səfər etdiyi İtaliyanın tarixi şəhərlərinə aparır və rəsmi səfərin qeyri-rəsmi tərəfləri ilə tanış edir. Unudulmaz və nadir kadrlar bir-birini əvəzləyir. Tamaşaçı səyahətçi ilə birlikdə səfərin qeyri-adi anlarına nəzər salmaqla Roma, Neapol, Pompey və Kapri adasına heyrətamiz səyahətə çıxır. Ulu Öndər İtaliyada rəsmi görüşləri ilə yanaşı, muzeyləri ziyarət edir, şərəfinə verilən ziyafətlərdə iştirak edir, Kapri adasına səfəri zamanı yerli adət-ənənə ilə tanış olur, kilsənin qarşısında yeni evlənənlərin nikah mərasimi ilə rastlaşır, onlarla söhbətləşir, təbrik edir və cütlüyə hədiyyə verir. Nadir kadrlar tamaşaçıya Ulu Öndərin mehriban, ünsiyyətcil rəftarını, sadə insanlara xoş münasibətini aydın nümayiş etdirir.

### AMERİKADA İLK TARİXİ GÖRÜŞ

“Bir səfərin izi ilə - ABŞ” sənədli filmi isə Heydər Əliyevin səfərlərinə həsr olunmuş filmlər toplusundan 8-cisidir. Filmdə 1997-ci il avqustun 1-də Ümummilli Liderin ABŞ prezidenti Bill Klintonla tarixi görüşündən olan kadrlar öz əksini tapıb. Ulu Öndər Ağ Evin Xatirə Kitabında “Azərbaycan xalqı adından Amerika xalqını salamlayıram”, - deyə yazır.

Bill Klinton Amerika liderlərinin görüşdüyü zalda Heydər Əliyevi və Azərbaycan nümayəndə heyətini qarşılayır. Müxtəlif sahələrlə bağlı protokolların imzalanması, Birləşmiş Millətlər Təşkilatında çıxışı zamanı Azərbaycan həqiqətlərini dünyaya çatıdırılması da bu görüşün əhəmiyyətli nəticələrindən olur. Bu görüş dövlətlərimiz arasında münasibətlərin inkişaf etdirilməsi üçün yeni bir səhifə açır. Ulu Öndərin ABŞ-nin başqa şəhərlərinə səfəri zamanı maraq göstərdiyi memarlıq nümunələri və məkanların tarixinə, mədəniyyətinə böyük marağı xüsusilə ön plana çıxarılır.

# ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV

























# ULU ÖNDƏR 103 HEYDƏR ƏLİYEV

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi İDMAN
9 MAY ŞƏNBƏ 2026
www.kaspi.az



Ulu Öndər Heydər Əliyev üçün idman intizam, iradə və vətənə bağlılıq məktəbi idi. O, idmana bir sosial institut kimi yanaşırdı, atdığı addımlar da bu istiqamətdə idi.



# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN İDMANI

Azərbaycan idmanının bugünkü uğurları təsadüfi deyil. Onların arxasında illər əvvəl düşünülmüş, məqsədyönlü və uzaqgörən siyasət dayanır. Həmin siyasətin müəllifi isə Ümummilli Lider Heydər Əliyevdir.

Heydər Əliyev idmanı gənclərin sağlam ruhda yetişməsi, cəmiyyətin formalaşması və dövlətin beynəlxalq nüfuzunun artması üçün vacib vasitə sayırdı. Bu baxış Azərbaycanın sonrakı illərdə idman sahəsində qazandığı uğurların əsasını təşkil etdi. Onun yanaşmasında idman sadəcə medal və nəticə deyildi. İdman həm də sağlam cəmiyyət, güclü dövlət və milli özünüdərk arasında qurulan körpü idi. Məhz bu səbəbdən Ulu Öndərin idman siyasəti digər sahələr kimi epizodik deyil, sistemli və uzunmüddətli strategiya üzərində qurulmuşdu.

**MÖHKƏM TƏMƏLLƏR**

Heydər Əliyevin ölkəmizə hələ birinci rəhbərliyi dövründə idman sahəsinə münasibət kökündən dəyişdi. Sovet illərində atılan addımlar göstərirdi ki, bu sahə gələcək üçün prioritet müəyyənləşdirilir. Stadionların tikilməsi, idman zallarının yaradılması, uşaq-gənclər məktəblərinin genişləndirilməsi sağlam və güclü nəsil yetişdirməyə xidmət edirdi. 1970-ci illərdə Bakıda 250 idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə Bakıda möhtəşəm idman sarayının təməli qoyularaq inşa edildi. 1974-cü ildə ölkənin 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi.

Beləliklə, idman sahəsində gələcək üçün möhkəm təməllər hələ Ulu Öndərin birinci rəhbərliyi dövründə olduqca məhdud imkanlarla qoyulmuşdu. Ulu Öndər üçün idman intizam, iradə və vətənə bağlılıq məktəbi idi.

## Dağıntıdan dirçəlişə

Müstəqilliyin ilk illərində Azərbaycanın üzləşdiyi çətinliklər idman sahəsinə də təsirsiz ötüşmədi. Təəssüf ki, həmin qeyri-sabitlik illərində idman infrastrukturu dağıldı, sistem pozuldu, idmançılar bir ucdan ölkəni tərk etməyə başladılar. Bu, geniş miqyasda sağlam gələcək üçün aşkar təhlükə idi. Nə yaxşı ki xilaskar vaxtında yetişdi...

1993-cü ildə xalqın təkidli xahişi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkə həyatının digər sahələrində olduğu kimi, idman sahəsində də mənzərəni kökündən dəyişdi. İdman yenidən dövlətin diqqət mərkəzinə gətirildi. Bütün sahələrdə olduğu kimi burada da atılan məqsədli və prinsipial addımlar, qəbul edilən ardıcıl qərarlar gələcək böyük uğurların təməlini qoydu. Ulu Öndər idmanı dirçəltməklə əslində cəmiyyətin özünə inamını bərpa edirdi. O, yaxşı anlayırdı ki, meydanda qazanılan qələbələr milli ruhu da gücləndirir.

## İdarəetmə institutunun formalaşdırılması

Heydər Əliyevin idman sahəsində ən böyük xidmətlərindən biri bu istiqamətdə sistemli idarəetmənin qurulması oldu. Dövlətin idman siyasətinin həyata keçirilməsi üçün 1994-cü ildə Ümummilli Liderin fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. 1995-ci il martın 5-də Heydər Əliyev yeni bir fərman imzaladı. Həmin fərmana əsasən, Azərbaycan Respublikası əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahədə ümumxalq yardımının təşkil olunması məqsədilə gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxmasına real zəmin yaratmaq üçün Azərbaycan Prezidenti yanında fond yaradıldı.



**YENİ MƏRHƏLƏNİN BAŞLANĞICI**

Ümummilli Lider tərəfindən formalaşdırılan idman siyasəti 1997-ci ildən etibarən yeni və daha dinamik inkişaf mərhələsinə qədəm qoydu. İlham Əliyevin Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi Heydər Əliyevin idmanın inkişafına dair müəyyən etdiyi strateji xəttin daha sürətli və sistemli şəkildə reallaşmasına güclü təkan verdi.

İlham Əliyevin rəhbərliyi altında idman və bədən tərbiyəsinin inkişafı prioritet istiqamətlərdən birinə çevrildi, Azərbaycan beynəlxalq idman arenasında daha fəal və nüfuzlu mövqe qazanmağa başladı.

## Böyük yarışlarda qaldırılan bayraq

Heydər Əliyevin idmana verdiyi dəyərin arxasında daha geniş bir baxış dayanırdı. O, idmanı ölkənin beynəlxalq təqdimat vasitəsi kimi görürdü. Böyük yarışlarda qaldırılan bayraq, səslənən himn idman hadisəsi olmaqdan əlavə, həm də dövlətin dünyaya mesajıdır. Ulu Öndərin uzaqgörənliyi də məhz burada üzə çıxır. O, idmanın gələcəkdə Azərbaycanın tanıdılmasında necə mühüm rol oynayacağını öncədən görürdü. Ulu Öndərin layiqli davamçısı İlham Əliyevin rəhbərliyi ilə idman infrastrukturu daha da genişləndirildi, beynəlxalq yarışlar ölkəmizə gətirildi, idmançılara göstərilən diqqət artırıldı. Regionlarda tikilən Olimpiya kompleksləri, Bakıda və bölgələrdə keçirilən mötəbər yarışlar və əldə olunan nəticələr göstərir ki, vaxtilə qoyulan təməl möhkəmdir.



Bu xəttin müəllifi olan Heydər Əliyev idmanı dövlətçilik düşüncəsinin bir hissəsinə çevirməklə gələcək nəsillər üçün davamlı inkişaf modeli formalaşdırdı. Bu gün qazanılan hər bir medal, hər bir qələbə və hər bir beynəlxalq uğur həmin uzaqgörən siyasətin davamı kimi dəyərləndirilir. Azərbaycan Olimpiya, dünya və Avropa çempionları ilə, möhtəşəm idman qurğuları ilə öyünürsə, böyük idman tədbirlərinə möhtəşəm təşkilatçılığı ilə seçilirsə, beynəlxalq idman təşkilatlarının güclü tərəfdaşı kimi çıxış edirsə, bunların hər biri məhz həmin siyasətin nəticəsindədir.